**Rəna Mirzəzadə**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
"Siyasətin fəlsəfəsi və sosiologiyası"
şöbəsinin müdiri f.e.d., professor,

# Suveren Azərbaycanda konstitusion Dövlətçilik: siyasi-hüquqi, hərbi-təhlükəsizlik konseptləri

## Xülasə

Təhlildə suverenlik fəlsəfəsinin siyasi-hüquqi nəzəri aspektləri, bu mətndən siyasi tarixə ekskurs, müstəqil Azərbaycanda Konstitusiyanın formalaşması tarixinə nəzər, həmçinin dövlətçilik institutunun və hakimiyyətin daha da təkmilləşdirilərək inkişaf xəttində Azərbaycan Konstitusiyasına zamanın tələbindən irəli gələn əlavə və dəyişikliklər parametrləri geniş əhatəli təhlil edilmişdir. Yekunda, nəticədə müstəqil Azərbaycanda bu istiqamətdə aparılan işlərlə bağlı rəy və fikir bildirilmmişdir.

**Açar sözlər:** suveren Azərbaycan, dövlətçilik, siyasi-hüquqi aspekt, təhlükəsizlik konsepsiyası.

## Giriş

Hər dövlətin varlığı və inkişafı onun suverenliyi-müstəqilliyi əsasında dövlət hakimiyyətinin qurulmasında konstitusiya prinsiplərinin yaradılmasıdır. Hüquqi dövlətdə konstitusiya, insan haqları, hüquqları və azadlıqlarını, hakimiyyət bölgüsünü və sair bir çox vacib hüquqi bazanın prinsipləri müəyyənləşdirilir.

Xalq üçün öz müstəqil, azad, suveren dövlətini yaradaraq onu qorumaq, hər an müdafiəsinə hazır olmaq ölkəsinin tarixi-strateji təhlükəsizliyidir. **Qanuni ərazisi, əhali və siyasi hakimiyyət kimi mühüm atributları ehtiva edən siyasi qurumun** dövlət olaraq qəbul edilməsi üçün **suverenlik, müstəqillik** xarici və daxili siyasətində təhlükəsizlik parametrlərinə malikliyi əsas şərtidir.

**Suverenlik** dövlətin mövcudluğu və siyasi, ictimai, iqtisadi, dayanıqlı inkişafının əsas göstəricisidir.

**Siyasi nəzəriyyə** kursunda **suverenlik** dövlətin qərar qəbul etmə strategiyasında və məsuliyyətinin təminində əsas nəzarət edən və ya səlahiyyətidir. **Siyasətşünaslıqda və beynəlxalq hüquqda** çox mübahisəli ideyalardan biri suverenlik termininin dövlət və hakimiyyət, müstəqillik və demokratiya məfhumları ilə çox bağlı olmasıdır.

**Dövlət suverenliyi** hər ölkənin öz ərazisində vahid və şəriksiz dominantlığı xarici siyasətdə müstəqilliyidir. **Siyasi-nəzəri fəlsəfədə dövlət** ərazisi böyüklüyü, əhalisinin sayı, konstitusiya quruluşu ilə bağlı olmayaraq öz suverenliyi vardır.

**Suverenlik dövlət və dövlətçilik fəlsəfəsinin** əsas əlaməti olub, ictimai-siyasi münasibətlərin subyekti, cəmiyyətin siyasi sisteminin mühüm tərkib hissəsidir.

**Dövlət suverenliyi siyasi-nəzəri hüququn** müstəqil subyektində ərazi bütövlüyü və bölünməzliyi, sərhədlərinin toxunulmazlığı və ölkənin milli təhlükəsizliyinə daxili siyasətinə kənar müdaxilənin olmaması kimi fundamental prinsiplərdən ibarətdir.

Dövlət suverenliyinin **iqtisadi təməlini** onun ərazisi, təbii, yeraltı və yerüstü resursları, **siyasi yolunu** sabit, bərqərar olmuş dövlətin institutlaşmış idarəçiliyi mexanizmləri təşkil edir.

Suverenliyin **siyasi-hüquqi əsasında** konstitusiya və digər normativ aktları, eləcə də dövlətin bərabərliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, suverenliyinə müdaxilənin yolverilməzliyinin Ali Qanunda təsbit olunan prinsipləridir.

**Suverenlik** hər bir xalqın formalaşdırdığı müstəsna, üstünlüyü ilə qaynaqlanan bir hüquqdur. **"Suverenlik"** ifadəsi ilk dəfə **XVI əsr fransız siyasətçisi Jan Boden** tərəfindən kral hakimiyyətinə şamil edilən praktik nəzəriyyə kimi meydana çıxmışdır.

XXI əsr dünyasında geosiyasi mühitdə qanunlar, hüquqi aktlarda vəziyyət beynəlxalq əlaqələrdə dövlətlərarası qarşılıqlı münasibətləri tənzimləyən norma və prinsiplər getdikcə dəyişir. Bu mənada dəyişən problemlərdən biri **suverenlik**dir. **Siyasi fəlsəfədə suverenliyin** mahiyyəti və onun beynəlxalq hüquqda dövlətlərarası əlaqələrin təcrübədə, həyata tətbiqində müəyyən problemlər də meydana çıxır.

**Suverenlik** nəyi ehtiva edir... **Suverenlik**, **suverenitet** (*fr. souverainete* — **ali hakimiyyət) – ölkənin daxilində** və **ondan kənarda müstəqilliyin ifadəsi** kimi dövlətin siyasi və hüquqi xüsusiyyəti olub, onun öz daxili və xarici funksiyalarını azad və sərbəst şəkildə öz konstitusiyası və qanunları, beynəlxalq hüququn tanınmış prinsipləri, normaları əsasında həyata keçirmək, habelə xalqın sərbəst və müstəqil şəkildə öz idarəetmə formasını müəyyən etmək hüququdur"(8).

**1. Suverenlik termini** siyasətşünaslıq və beynəlxalq hüququn mühüm anlayışı kimi, **dövlətin milli təhlükəsizliyi, daxili və xarici siyasətində onun müstəqilliyinin göstəricisidir.**

**Bu mətndən bəs suveren dövlət nəyi əxz edir... "Suveren dövlət -** beynəlxalq hüquqda ali hakimiyyəti təmsil edən, öz dövlətinin daxili və xarici siyasətində tamamilə müstəqil olan, başqa dövlətin hakimiyyətindən asılı olmayan və **hansısa bir coğrafi ərazidə suverenliyi olan dövlətdir"**(10). Beynəlxalq hüquqda **suveren dövlətlər** öz əhalisinə sahibliyi müəyyən bir ərazisi ilə ali və tək hökuməti olmaqla, digər suveren dövlətlərlə münasibət quran güclülüyü ilə xarakterizə olunur. **Suveren dövlət** başqa bir dövlətdən nə asılı, nə də hansısa dövlətə tabe olmur. Suverenlik dövlətin müstəqil siyasət aparmaq, daxili və xarici strateji kursunu azad tənzimləmək hüququdur.

**Suverenliklə** bağlı siyasi tarixə ekskurs:

Tarixi inkişafın orta əsr dönəmində meydana çıxan və dövlətin müstəqil suverenliyini əks edən **Vestfal Sülhü (1648)** ilə siyasi-hüquqi mətndə formalaşmışdır.

**Professor Ə.Abbasov yazır ki:** "Suverenlik ideyası bir prinsip kimi öz ilk təsbitini təxminən 350 il bundan əvvvəl, **24 oktyabr 1648-ci ildə, Vestfal sülh**

**müqaviləsinin** bağlanması ilə tapmışdır. Həmin saziş mövcud beynəlxalq münasibətlər sisteminin təməlini yaratmışdır. O vaxtdan keçən müddətdə, suverenlik prinsipi yenilməz qalmışdır. Bu mənada ki, heç bir dövlət və ya ölkə başçısı bu prinsipi, özlüyündə bir ideya kimi, dövlətlərarası münasibətlərin etiraf olunmuş norması kimi şübhə altına almamışdır. Əksinə, **suverenlik prinsipi** beynəlxalq münasibətlər sisteminin dünyagörüşü əsaslarının mühüm tərkib hissəsi kimi təqdir edilmişdir (8;67).

2. Suverenlik: siyasi-nəzəri kontekst.

Suverenlik dövlətin və digər siyasi qurumun daxili və beynəlxalq işlərində müstəqilliyi, muxtariyyəti prinsipidir. **Xalq suverenliyi** anlayışı fransız maarifçiliyinin nümayəndəsi **J.J.Russonun** "Sosial müavilə və siyasi hüququn prinsipləri haqda" (1762) traktatında verilmişdir. Suverenliyin hansı növləri mövcuddur... Elmdə bu termin 3 növ suverenliyi əhatə edir: **dövlət, xalq və milli "Dövlət suverenliyi" nəzəriyyəsi M.Makiavelli, J.Boden, T.Hobbs və s. əsərlərində nəzərə yetirilir. "Xalq suverenliyi" bir anlayış kimi Yeni Zamanda – J.Lokk, J.J.Russonun** əsərlərində rast gəlinir.

Qeyd edək ki, **16-cı əsrdə Fransada Jan Boden yeni suverenlik**-fransız kralının üsyankar feodallar üzərində hakimiyyətini gücləndirən, feodalizmdən millətçiliyə keçidi asanlaşdıran **konsepsiyasını** irəli sürdü. **İngilis filosofu Tomas Hobbs** "Hər bir həqiqi dövlətdə bəzi şəxsin və ya şəxslərin birliyinin qanunu bəyan etmək üçün son və mütləq səlahiyyətə malik olması lazımdır" (12; 4) deyə yazırdı. Bu səlahiyyəti bölmək, onun fikrincə, mahiyyətcə dövlətin birliyini pozmaq mənası daşıyırdı və **siyasi fəlsəfədə** bu fikir önəmli yer tutur.

**T.Hobbs** vurğulayırdı ki: "Dövlət tam suverenliyə vətəndaşlar üzərində tam hakimiyyətə malikdir. Suveren qanuna tabe deyil, o, qanunları özü yaradır" (12;11).

**İngilis filosofu Con Lokk** və **fransız filosofu Jan-Jak Russo** nəzəriyyələrində - "dövlət öz vətəndaşlarının formal və ya qeyri-rəsmi müqaviləsinə, sosial müqaviləyə əsaslanır" deyə yazırdılar (17;11).

**İngilis A.Minsley suverenliyə** bir mühüm siyasi və hüquqi anlayış kimi baxır ki: "o da "siyasi cəmiyyətdə ali və mütləq siyasi hakimiyyətin mövcudluğu haqqında ideyanı özündə təmsil edir" (10). Belə ki, **xalq suverenliyi** xalq hakimiyyətidir, heç nə ilə məhdudlaşa bilməz, cəmiyyətin əksər həyat sahələrini birləşdirən monolitdir, vətəndaşların vahid maraq məqsədləridir, inkişaflı rifaha, birgə əməyə yönəlik ümumi idealların həyata keçilməsində bir yerdə mübarizə və vəzifələrdir. **J.J.Russo** məntiqi ilə göstərsək: "Əgər kimsə ümumi iradəyə tabe olmaqdan imtina edərsə, bütün orqanizm tərəfindən o buna məcbur ediləcəkdir; bu, yalnız o deməkdir ki, onu zorla azad edəcəklər" (17;164).

İngilis tədqiqatçı **Artur Xinsli** "suverenliyi vacib siyasi-hüquqi termin olaraq, cəmiyyətdə ali və mütləq siyasi hakimiyyətin varlığı barəsində ideyanın təmsilçisi olmasını" qeyd etmişdir (14).

**"Suverenlik"** anlamına iki aspektdən: **xalqın suverenitetliyi** və **dövlət suverenliyi nəzərindən** yanaşaq.

Qeyd edək ki, **"xalq suverenliyi"** məfhumu Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində təsbit olunur**. "Dövlət suverenliyi"** dövlətçilik

institutunun, hakimiyyətinin unitarlığında, dövlət orqanlarının qanunvericilik bazasının hüquqi və fiziki şəxslər üçün qaydalarında əksini tapır.

Bu paradiqmadan – həm **xalq suveriniteti, həm dövlət suverenliyi** qanunvericilik əsaslarına söykənən hüquqla tənzimlənir. Beləliklə də, xalq suverenliyi ilə **dövlət suverenliyi vəhdətində xalq hakimiyyətlə, hakimiyyət də xalqla birlikdə tənzimlənir, xalq-dövlət** iradəsi ümumi maraq, mənafe, bir məqsəddə uyğunlaşdırılaraq reallaşır.

**"Xalq suverenliyi"** – demokratik quruluşun vacib təşkil forması, hakimiyyəti təşkiletmənin əsas xüsusiyyətidir.

Müasir siyasətşünaslıqda **"xalq suverenliyi"** anlayışı əsasən **"demokratiya"** termini ilə əvəzlənmişdir. Yəni **"demokratiya"** – **"xalq hakimiyyəti"** mənasında ehtiva olunur. Demokratikliyin vacib təşkiledici əlaməti – **xalq suverenliyidir.**

Birləşmiş Millətlər Təşkilatının üzv ölkələrinin hamısı suveren dövlətlərdir, ancaq suveren bir dövlət olmaq üçün **BMT üzvü olmağa** ehtiyac da yoxdur.

-Beynəlxalq hüquqda **suverenlik prinsipi** Birləşmiş Millətlər Təşkilatının 1945-ci il Nizamnaməsi ilə təsbit olunur. **BMT-nin Nizamnaməsinin 2-ci** maddəsinin 1-ci bəndində yazılıb: "Təşkilat onun bütün üzvlərinin **suveren bərabərliyi** prinsipinə əsaslanır" və 2-ci maddənin 7-ci bəndində isə "dövlətin daxili işlərinə müdaxilə olunmamasını" təsbit edir (15). Qeyd edək ki, dünyanın yenilənən dövrü beynəlxalq təşkilatlarının da yüksələn rolu səbəbindən dövlət suverenliyinin yeni hədəflərlə qarşılaşmasına səbəb yaratmışdır.

Demokratik inkişaf əhalinin iradəsi ilə formalaşan **"xalq hakimiyyəti"** və **"dövlət hakimiyyətinin"** fəaliyyətində ehtiva olunur.

Bəs **xalq hakimiyyəti** konstitusion sistemdə hansı xüsusiyyətlərlə şərtlənir... Belə ki:

- **ilkin olaraq** bilavasitə **"xalq" və "suverenlik"** anlamı gəlir;

-**sonra**, yeganə **xalq məhz hakimiyyətin əsasıdır** kimi ehtiva olunur; **-**

**-sonrasında,** "xalqın maraq və mənafesi" dövlətin maraq-mənafelərini, fəaliyyət sahələrini strukturlaşdırır; **-nəhayət,** dövlət ideolgiyası da dünyəvi dəyərlər kontekstində xalqın mədəni-mənəvi, tarixi dəyərləri, adət-ənənələri mətnində formalaşdırılır (5).

**Siyasi-nəzəri** kateqorial aparatda **"xalq hakimiyyəti", "xalq suverenliyi"** anlayışlarının konkret sosio-iqtisadi xarakteristikasına nəzər yetirək. **"Xalq suverenliyi"** suverenlik barəsində siyasi elmin tərkibi hissəsi kimi **"formalaşma", "bərqərar olma"** mərhələsində meydana çıxan və burjua sinfinin ideyaçıları tərəfindən meydana çıxıbdır. Siyasi hakimiyyət uğrunda burcuaziyanın feodal hakimiyyətinə qarşı mübarizə forması xalqla birlikdə həyata keçə bilərdi. Bu mətndən burcuaziya sinfi xalqın hər zaman arzusunda olduğu azadlıq, xalq idarəçiliyi - **"xalq hakimiyyəti"** tezisini əsas götürdü.

**Xalq suverenliyi ilə dövlət suverenliyi** paralelliyinin vəhdəti komponentinə nəzər yetirək. **Konstitusiya hüququnda** xalq əsas subyektlərdəndir. Bəs bu subyektlik nədə ehtiva olunur... Bu subyektivlik **referendum və seçkilərdə iştirakla**, belə siyasi hüquqla da hakimiyyətin təşkilidir. Məhz bu kimi fikir orta əsrlərdəki Fransa inqilabı dövründən təşəkkül tapıb. Bu fikir o dövrdə kral-

monarxiyaya qarşı yönəlmiş, bir nəfərin – kralın, şahın və s. hakimiyyətdə qeyri-məhdud səlahiyyətinin ləğvinə doğru idi.

1791-ci il Fransa Konstitusiyasında verilmiş **"Suverenlik** vahiddir, bölünməzdir, ayrılmazdır və qeyd-şərtsizdir; millətə məxsusdur; heç bir qrup və heç bir fərd özünə suverenlik aid edə bilməz" ifadəsi yer almışdı (13;11).

**J.J.Russoya görə:** "Xalq özü ona məxsus hakimiyyəti realizə etməlidir. Bunun üçün seçkili şüarlar təşkil olunmalı və onlar da hakimiyyəti həyata keçirməlidir" (9;14) və **"Xalq hakimiyyətinin aliliyini"** yazaraq, qanunverici orqan üzərində icra hakimiyyətinin nəzarətini isə inkar edirdi. J.J.Russo hesab edirdi ki: "Qanunverici hakimiyyət bütün digər hakimiyyət orqanlarından yüksəkdə durub, onları idarə etməlidir" (9;12). **"Xalq hakimiyyətin mənbəyidir"** nəzəriyyəsinə əsasən xalq öz hakimiyyətini özü reallaşdırmır, ümumxalq seçkilərində xalqın səsi ilə formalaşdırılır, hakimiyyət təsisatını qurur. **Dövlət hakimiyyəti** də xalqdan qaynaq alaraq xalq tərəfindən həyata keçirilir. Xalq hakimiyyəti seçkilərlə müəyyən olunaraq hakimiyyətin həyata keçirilmə mexanizmi hüququnu isə **dövlət təşkil** edir.

Bəs **referendum** nədir... Xalqın öz hakimiyyətini realizə etməsi referendumla müəyyən olunur. **Xalq** referendumda hüquqi subyektdir, **hakimiyyətin subyekti** olaraq öz hüququnu reallaşdırır. **"Xalq suverenliyinin"** məzmunu konstitusiyada təsbit edilir.

XX əsrdə **"milli suverenlik"** anlayışı meydana çıxdı. Bu millətin müstəqil olaraq öz azad siyasi hüququnu təmin etməsi idi. "Milli suverenliyin" məzmunu millətin tam səlahiyyəti və onun dövlət-hüquqi təşkilatın və digər xalqlarla münasibət formasını seçməkdə siyasi azadlıqdır (18).

**"Milli suverenliyin" mahiyyəti** – demokratik prinsip olub onun həyata keçirilməsi xalqın mövcudluğu və inkişaf şəraiti ilə bağlə mühüm maraqlarını dərk etməsindən asılıdır (10).

-Milli suverenliyin əsasını, məhz Konstitusiyanın aliliyi təşkil etməsidir.

Klassik və milli suverenliliklə bağlı **siyasi-hüquqi konsepsiyalar,** BMT Nizamnaməsi, beynəlxalq münasibətlərdə siyasi norma və prinsiplərdə **suverenlik** dövlətin bütün ərazilərində daimi və mütləq hakimiyyətidir. **Suverenlik konsepsiyasının** əsas prinsiplərindən biri onun bölünməzliyidir.

Bəs **"suverenlik hüququ"** necə həyata keçirilir... Suverenlik hüququ **Referendum** vasitəsilə reallaşdırılır və bütün xalqın ifadəsinin həyata keçirilmə metodudur. Burada konstitusion hüquqi status məsələsinə nəzər salaq. Konstitusion hüquqi status şəxsiyyətin hüquqi statusunun mühüm əsaslarından ibarətdir. Qeyd edək ki, konstitusion status həm də vətəndaşlara hüquqi nəzərdə xalq olaraq yanaşmağa imkan yaradır.

Ali Qanunnamə - **Konstitusiya** dövlətin qanunvericilik əsaslarının idarəetmə xəttini, insanların haqq və hüquqlarını tənzimləyən əsas müddəalar toplusudur. **Dövlət suverenliyi** ilkin olaraq onun siyasi-hüquqi, sosio-iqtisadi özülünün formalaşdırılmasıdır.

3. Müstəqil Azərbaycan Respublikası dövlətçilik institutunun mühüm prinsiplərinin **əsası suverenlik və konstitusion hakimiyyət sistemidir.**

Azərbaycan Respublikasının Konstitusiyasının siyasi tarixi rəsmən 3 yerə bölünür: Azərbaycan Xalq Cümhuriyyəti, SSRİ və müstəqillik dövrü. Təbii ki, AXC 1918-ci il 28 mayda İstiqlal Bəyannaməsini qəbul etsə də, rəsmi Konstitusiya qəbul olunmayıbdır. Bu mətndən 1918-ci il 28 mayda Tiflisdə Milli Şuranın qəbul etdiyi "İstiqlal bəyannaməsində göstərilirdi ki: "Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərq Zaqafqaziyanı əhatə edən Azərbaycanda tam hüquqlu bir dövlətdir" (5). "Nəzərə yetirək ki, **Ulu öndər Heydər Əliyev** 31 oktyabr 1995-ci il Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsində dövlət dili haqqında maddənin müzakirəsində çıxışında qeyd edir ki: "Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu tarixi hadisədir. İlk Konstitusiya 1921-ci ildə qəbul olunub. Ondan qabaq isə - 1919-cu ildə ilk ADR yaranandan sonra konstitusiya aktı qəbul olunmuş, konstitusiya qəbul edilməmişdi"(6).

4. Suveren Azərbaycanda Konstitusionalizm.

Hər ölkənin **müstəqil, azad bir suveren dövlətə mənsubluğu, milli-irsi, mədəni-mənəvi dəyərləri, birlik-həmrəyliyi, haqqa söykənən humanizmi, hüquqa söykənən ədalət və milli qanunlarla tənzimlənən inkişaflı cəmiyyətinin mənsubluğu** olmaq Azərbaycan xalqının da əsrlərlə istəyi olmuşdur. Bəşər tarixinin müxtəlif inkişaf dönəmlərində çoxsaylı işğal, müdaxilə, təzyiqlərə baxmayaraq, Azərbaycan xalqı öz milli kimlik, mübarizə amalını hifz etmiş, dövlətqurma istəyi və ideallarına daima sadiq olmuşdur.

Azərbaycanın ilk Konstitusiyası I Ümumazərbaycan Sovetlər qurultayında **1921-ci il 19 mayda**, keçmiş SSRİ Konstitusiysına uyğunlaşdırılmış, sonradan yeni təkmil forması isə **1925-ci il 14 martda** IV Ümumazərbaycan Sovetlər qurultayında **qəbul olundu, daha sonra 1927-ci il 26 mart və 1937-ci il 14 martda qəbul edilən konstitusiyalar qüvvədə olub.** 1977-ci il SSRİ-nin yeni Konstitusiyası qəbul ediləndən sonra Azərbaycan SSR-in yeni Konstitusiya layihəsi hazırlanıb. 1978-ci il 2 apreldə həmin layihə ilə çıxış edən Ulu öndər Heydər Əliyevin təklifilə 73-cü maddədə "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" yazılıb. Həmin Konstitusiyaya 1980-ci ildə çoxsaylı əlavə və dəyişikliklər edilibdir. Keçmiş SSRİ dövründə Azərbaycanda **son Konstitusiya 21 aprel 1978-ci ildə** qəbul edilmişdi. Azərbaycanlıların qanunla təsbit edilən haqq və hüquqlarının Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiya Aktı statusuna malik olan **ilk hüquqi sənəd – 1918-ci il İstiqlal Bəyannaməsində** əks olunub.

**Ulu öndərin müəllifi olduğu 1995-ci il 12 noyabr** Azərbaycan Respublikasının **ilk Konstitusiyası** ölkənin çoxistiqamətli milli qanunvericilik və institusional əsasını formalaşdırdı. **Konstitusiya** milli Ali Qanun, dövlətin müstəqillik, suverenlik və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşların rifahlı həyatı, dünya ölkələri ilə qarşılıqlı əməkdaşlığın həyata tətbiqində əsas qanunvericilik bazası oldu.

**XX əsrin əvvəli Azərbaycan Xalq Cümhuriyyəti və sonunda müasir Azərbaycanda yenidən dövlət müstəqilliyini qazanmışdır.**

Bu mətndən də siyasi-hüquqi mətndə gedilən Azərbaycanda suverenlik və Konstitusiya yoluna nəzər yetirək. Belə ki, **1991-ci il oktyabrın 18-də**

**“Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında müstəqil ölkənin yeni Konstitusiyasının tərtibi nəzərə yetirilmişdi.** Lakin, 1991-1993-cü illər ölkədə böhran, anarxiya, xaosa görə qanunçuluğun təmini mümkün olmadı. 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn **Ulu öndər Heydər Əliyevin böyük** siyasi-strateji təcrübəsi ilə dövlət quruculuğu və hakimiyyət strukturları yeni dövrə uyğun, yenidən formalaşdırıldı. 1918-1920-ci il 23 ay yaşayan AXC-dən sonra yenidən müstəqillik qazanan gənc respublikanın parçalanmasının qarşısı alındı, ictimai-siyasi daxili sabitlik təmin olundu. Ulu öndər qeyd edirdi ki: “Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən... bəhrələnməliyik”(4;18).

Diqqətə yetirdik ki, 1918-1920- ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycanın Konstitusiya quruluşunun tarixi əsasən SSRİ dövrünə düşür. Müstəqil Azərbaycan Respublikasının **suverenliyi** 18 oktyabr **1991-ci ildə “Müstəqillik haqqında Konstitusiya Aktı”** ilə hüquqi əsasa malik olmuşdur. 1991-ci il 29 dekabrda ümümxalq Referendumda məsələ müzakirəyə çıxarılıb, əhalinin 95 %-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verib (7). **1995-ci il Konstitusiyası** bu suverenliyin hüquqi zəmində gücləndirilmiş dövlət və hakimiyyət idarəetmə sisteminin qanuni bazasını yaratmışdır.

5. Suveren Azərbaycanda ilk milli Konstitusiya.

Azərbaycanda **“xalq”məfhumu** Konstitusiyanın **1-ci maddəsinin II bölümündə** təsbit edilib və nəzərə yetirilir ki: **“Azərbaycan xalqı Azərbaycan Respublikası əraxsiində və ondan kənarda yaşayan**, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan, Azərbaycan Respublikasının vətəndaşlarından ibarətdir” (1;4). Burada da **məhz xalq və vətəndaş anlayışını** bir-biri ilə uyğunlaşdırır. Bu hal nə deməkdir... **Hüquqi qanunlarda etnik, demoqrafik və sair əsasda xalq müəyyənləşdirilmir.** Bu hal isə xalqı – yəni vətəndaşlar məcmusunu əxz etdirən şəxsi bildirir. Bu zəmində hüquq-qanunun etnik məsuliyyətə münasibət neytral olub, heç bir halda milliyyətdən bəhs edilmir. Amma vətəndaşa münasibətdə **hüquq neytral deyil**, məhz bu zəmində **xalq** hüquqi mətndə vətəndaşların məcmusunu əks edir.

**1991-ci ilin oktyabrın 18 də qəbul edilən** “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında” yeni Konstitusiyanın hazırlanması qeyd edilmişdi.

Nəzərə yetirək ki, müstəqilliyin ilk dövrü ölkədə bütün sahələrdə böhran, xaos idi. Keçmiş sovet sisteminin dağılması, yeni müstəqillik qazanan ölkədə dövlət idarəçiliyi, dövlət quruculuğu, vətəndaşların azad və hüquqlarının təmini önündə böyük problemlər yaranmışdı. 1993-cü il xalqın təkidi və tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan **Ulu öndər Heydər Əliyev** ölkədə daxili ictimai-siyasi sabitlik, əmin-amanlıq, iqtisadi dirçəliş, dövlət quruculuğu istiqamətində böyük işlər apardı. Nəzərə yetirək ki, **Ulu öndərin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də Azərbaycan** Respublikasının Konstitusiyası Referendum vasitəsilə qəbul edildi, **1995-ci il 27 noyabrda** qüvvəyə mindi və ölkədə genişmiqyaslı milli qanunvericilik

və dövlətçilik institutlarının formalaşdırılması respublikada hərtərəfli inkişafın təminatına şərait yaratdı.

**Ulu öndər Heydər Əliyev vurğulayırdı** ki: "Biz elə konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında uzun müddətli yaşamasını təmin edən **Əsas Qanun – tarixi sənəd** olsun" (6).

**Ümummilli Lider Heydər Əliyevin** mükəmməl siyasi-strateji təcrübəsi, mili dövlətçilik institutu demokratik əsaslar yolunu tutdu. Müstəqil Azərbaycanda dövlətçilik institutunun yaradılmasına start verildi, hakimiyyət və dövlət orqanlı cəmiyyət həyatının əksər istiqamətlərini əhatə edən islahatlara başlanıldı. Bu zəmində məhz ictimai-siyasi sabitliyin təmini sosio-iqtisadi inkişaf yolu prioritetləşdirildi. İslahatlara əsas yaradan **milli qanunvericiliyin** – Konstitusiyanın yaradılması və s. çox vacib vəzifələr həyata keçirildi.

1995-ci il müstəqil Azərbaycanın ilk Konstitusiyası müasir dövlətçilik institutunun əsasını təşkil edən 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət fundamental hüquqi qanunnamədir. Konstitusiyada dövlət hakimiyyətinin bölünməsi prinsipi təsbit edilməklə icra, qanunvericilik və məhkəmə hakimiyyətləri arasındaki səlahiyyətlər bölgüsü də müəyyənləşdirilmişdir.

Məhz Ali Qanun – Konstitusiyanın qəbulu ilə müstəqil Azərbaycanda hüquqi, demokratik dövlət sisteminin qurulması başlanılmışdır. Konstitusiya - hüququ dövləti hakimiyyət və idarəetmə formasını insanların hüquq və azadlıqlarını, dövlətçilik institutları və hakimiyyət-icra strukturunu təmin edən qanuni rəsmi normativ aktlar sənədidir. Müstəqil Azərbaycan Respublikasında ən ali və birbaşa hüquqi qüvvəli qanunvericilik sistemi **Konstitusiya ilə ilə təmin olunur**, hüquqi və siyasi-ictimai sabitliyin tənzimi də burada təsbit edilərək, dövlət suverenliyinin mühüm təminatçısı kimi, Konstitusion normativlərlə ictimai-mədəni və sosio-iqtisadi münasibətlərin inkişafını müəyyənləşdirir.

Azərbaycan Konstitusiyasının qəbul edilməsi milli dövlətçilik İnstitutu siyasi-tarixində xüsusi əhəmiyyət daşıyır. Konstitusiya hüququ dövlətin təməl prinsiplərinin ilkin konseptual mahiyyəti oldu. **Ulu öndər Heydər Əliyev 1996-cı il 1 noyabr Fərmanı ilə hər il noyabrın 12-ci ölkədə "Konstitusiya günü"** kimi qeyd edilməyə başladı.

Azərbaycan **Konstitusiyasının 2-ci maddəsi "Xalqın suverenliyi" adlanır** və dövlətin müstəqilliyi və bölünməzliyi təsbit edilir ki, bu da hüquqi suverenliyin əsas göstəricisidir. Konstitusiyanın **2-ci maddəsinin I bölümündə yazılıb ki:** "Sərbəst və müstəqil öz müqəddaratını həll etməsi və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının **suveren** hüququdur"(1;4). Vacib məqam isə Konstitusiyanın preambulasındakı **"Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini** və ərazi bütövlüyünü qorumaq" niyyəti ilə bəyan edilir (1;3).

6.Müstəqil Azərbaycanda Konstitusiyada dəyişikliklər zamanın tələbidir.

**Konstitusiya** uzunmüddətli fəaliyyət mexanizmi üçün nəzərdə tutulan normativ hüquqi qanunlar sənədidir. Bu baxımdan Konstitusiyanın qəbulunda onun tənzimedilməsini təşkil edən **ictimai münasibətlər**, siyasi, mədəni, hüquqi, sosial və iqtisadi vəziyyətdir. Cəmiyyətdə elm və texnologiyaların inkişafı nöqteyi-nəzərindən də konstitusiya yeni dövrə uyğun olaraq təkmilləşdirilir.

Bu baxımdan da Azərbaycanda **Konstitusiyaya dəyişikliklər** və təkmilləşdirilmələr, dövlət və hakimiyyət idarəetmə sisteminin modernləşdirilməsinə yönəlik yenilənmədir. **2002, 2009 və 2016-cı illərdə** konstitusiya dəyişiklikləri dövlət hakimiyyətinin fəaliyyətində yeniliklərin təmini məqsədilə həyata keçirilmişdir. Bu dəyişikliklər idarəetmə sisteminin qanuna müvafiq optimallığını, çevik və ədalətli hüquqi bazanın təkmilləşdirilməsini şərtləndirdi.

**2002-ci il 24 avqustda Ulu öndər Heydər Əliyevin** təşəbbüsü ilə keçirilən referendumun yekunu olaraq Konstitusiyaya zamanın obyektiv gerçəkliyindən meydana çıxan 22 maddəsinə və ölkənin ümumilikdə 31 əlavə və dəyişikliklər edilib və ölkənin hüquq sistemi təkmilləşdirilərək, bölmələrə yeni müddəalar daxil edilmişdir.

Azərbaycan **klassik dövlətçilik əlamətlərini XXI əsrdə modern inkişafla ehtiva edən dövlətdir**, hakimiyyət səlahiyyətlərini müstəqil yerinə yetirir.

**Dövlət suverenliyi siyasi-hüquqi konsepsiyalarda** belə prinsiplərlə əks olunur:

- Dövlət suverenliyinin konstitusion siyasi-hüquqi mahiyyətində;
- Dövlət suverenliyinin atributluluğunda;
- Dövlət suverenliyinin real göstəricilərində;
- Dövlət suverenliyinin dayanıqlı inkişaf parametrlərində;

Klassik yanaşmada **dövlət suverenliyinin fəlsəfi mahiyyəti** onun atributluluqudur.

Dövlət hakimiyyətinin **aliliyi və müstəqilliyi (autarkiya) - yəni xarici şəraitdən** asılı olmamaq, özünü təmin etmək, özünü idarə etmək dövlət suverenliyinin vacib atributu kimi qəbul edilir. **Platon Aristotel**, yaxud klassik fəlsəfi yanaşmada autarkiyanın mahiyyətində dövlət digər subyektlərdən başqa heç bir gücə malikliyi ilə yox, bütün səlahiyyətlərini müstəqil həyata keçirməsi ilə fərqlənir (16).

Dövr, zaman sürətlə dəyişir, müstəqil Azərbaycanda da yeni inkişaf xəttinə start verilir. Yeni nailiyyətlər, sosio-iqtisadi islahatlara ehtiyac yaradır, vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, ölkələrlə beynəlxalq əlaqələr və s. bir sıra vacib yeniliklərin Konstitusiyaya da bir sıra əlavə və dəyişikliklərin olmasını zəruriləşdirdi. Bu zəmində **2009-cu il martın 18-də keçirilən Referendiumda Əsas Qanunun 29 maddəsinə, ümumilikdə 41 edilən əlavə və dəyişikliklər** keyfiyyətcə Konstitusiyanın təkmilliyinə, əsasən də insan hüquq və azadlıqları ilə əlaqəli müddəaların Əsas qanunda daha dolğun ifadəsi idi.

**2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü** ilə keçirilən Referendumda Konstitusiyanın 23 maddəsinə əlavə və düzəlişlər edilərək, habelə 6 maddə əlavə edilibdir. Konstitusiyaya edilən bu əlavə və düzəlişlər hüquqi dövlət prinsip və dəyərlərinin təminatında, insan hüquq və azadlıqlarının müdafiəsində dövrə uyğun təminatının göstəricisi idi.

**Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il Sərəncamı ilə 2025-ci il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edildi (2).** Bu Sərəncam ölkənin siyasi-hüquqi inkişafında **yeni dönəm - mühüm mərhələdir.**

Bu sərəncam hüquqi sistemin təkmilləşdirilməsinin, insanların hüquqi savadlarının artırılması və konstitusiya barədə biliklərinin artırılmasına yönəlik qərardır.

- Bu qərar Azərbaycan dövlətçilik institutunun siyasi tarixinin daha da geniş öyrənilməsində xüsusi əhəmiyyətli olub. Ölkənin dünəni, bu günü və gələcəyində **hüquqi dövlət və suverenlik dəyərlərinin** yeni qlobal çağırışlar zəminində tənzimlənməsidir.

**Sərəncamda göstərildiyi kimi:** "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən bpyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklər, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xaqlqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir"(2).

30 illik işğalda olan Qarabağ torpaqlarının azad olunması və suverenliyin tam təmini əsas qanunda ehtiva edilibdir. **Azərbaycan Konstitusiyasının 11-ci maddəsində** yazılıb: **"Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və** bölünməzdir" (1;7).

Postmüharibə dövrü Azərbaycan dövləti siyasi-diplomatik, informasion dialoq mətnində yeni uğurlara imza atdı. **2020-ci il 8 noyabr Zəfərindən sonra** da Azərbaycan sərhədləri atəşə tutulur, ərazilərin minalanması davam etdirilirdi. **2023-cü il sentyabrın 19-da aparılan** terrora qarşı genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin tərk-silah olunaraq, Qarabağ ərazilərindən tam qovulması, həmin torpaqlarda Azərbaycan Respublikası Konstitusiyasının bərpası üçün lokal miqyaslı **24 saatdan az müddətdə davam edən** antiterror əməliyyatı nəticəsində işğalda qalan yerləri də azad etdi.

**2020-ci il 19 sentyabr tarixi suverenlik və konstitusion əsaslı hüquqi dövlətçilik tarixinə qızıl səhifə kimi yazıldı. Ölkənin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.**

**Azərbaycan Konstitusiyasının hüquqi təminatı işğaldan azad olunan bütün ərazilərdə bərqərar edildi.** Dövlət və xalqın siyasi tarixində xüsusi əhəmiyyətli **bu Qələbənin yekunu kimi** Azərbaycanın Dövlət bayrağı suverenliyini bərpa edildiyi bütün ərazilərdə sancılaraq, dalğalandı. **Konstitusion Respublikada** həyata keçirilən səmərəli dövlət-hakimiyyət idarəçiliyi, təhlükəsizlik və daxili ictimai-siyasi sabitliyin gücləndirilməsi, **suverenliyin, müstəqilliyin** daha da gücləndirilməsi ilə vəhdətdə oldu.

Postkonflikt dövrü işğaldan azad olunan ərazilərdə **yenidənqurma, dağıdılanların bərpası və dirçəlişi** həyata keçirilərək, Şuşada, Qarabağ və Şərqi Zəngəzurda çoxşaxəli quruculuq layihələri aparılır, dövrün standartlarına uyğun yeni infrastruktur qurulur. Qarabağın dirçəlişi, bütün bərpa və yenilənmələr **Azərbaycan Respublikası ərazisinin unitar, toxunulmaz, bölünməz, suveren ölkə kimi konstitusion hüquqlarının təmininin bariz əksidir.**

Müstəqil Azərbaycanda sosio-iqtisadi inkişaf ölkənin siyasi-hüquq idarəetməsində modernliyi vətəndaşların hüquqlarının və azadlıqlarının effektiv müdafiəsini meydana çıxardı.

**Prezident İlham Əliyevin imzaladığı** 2024-cü il dekabr Sərəncamında qeyd olunur: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə,

həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur"(2).

7. Konstitusiya və Suverenlik ili – 2025-ci il.

Azərbaycan Konstitusiyasının preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Qarabağ bölgəsi torpaqlarının 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkə ərazisinin bütövlüyünün, suverenliyinin bərpası Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdi.

2020-ci il sentyabrın 27-də qonşu Ermənistanın təxribatlarına adekvat cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də Vətən müharibəsindən sonra ölkənin ərazi bütövlüyü və suverenlik tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan **Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli** Sərəncamına əsasən, sentyabrın 20-si **Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü** elan edilmişdir (3).

Konstitusiyanın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğu, 2025-ci ildə Konstitusiyanın qəbulunun 30-cu və Vətən müharibəsində Qələbənin 5-ci ildönümü nəzərə alınaraq, məhz 2025-ci il "Suverenlik Konstitusiya ili" adlandırılmışdır.

**2020-ci ilin sentyabrın 27-si** Ermənistanın ölkəyə təxribatlarına cavab olaraq başlamış **Vətən müharibəsi** tarixi zəfər və Qalib xalq olması ilə sona yetdi. 2023-cü il sentyabrda həyata keçirilən lokal antiterror əməliyyatının yekununda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi.

Bu nöqteyi-nəzərdən həm 1995-ci ildə **ilk Konstitusiya qanununun** – yəni Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsi qələbəsinin beşinci ilini nəzərdə tutaraq, **2025-ci il "Konstitusiya və Suverenlik İli" elan** olundu. Bu həm siyasi-tarixi qiymət, həm dövlətin keçdiyi yolun mahiyyətinə bir nəzər salmaq, həm də hər bir azərbaycanlının qürurla qeyd etdiyi tarixi faktların təsbitidir.

2025-ci il həm müstəqil Azərbaycanda Konstitusiyanın qəbulunun 30 illiyi, həm də Vətən müharibəsindəki Qələbənin 5 illik yubileyidir. Bu keçilən yolların **siyasi-nəzəri tarixinin araşdırılması**, əsasən də gənc nəslin geniş məlumatlandırılması ilə maarifçilik missiyasının aparılması zərurətdir.

## Nəticə

**-Prezident İlham Əliyev tərəfindən "2025-ci ilin "Konstitusiya və Suverenlik İli"** elan edilməsi siyasi-hüquqi və ictimai-mədəni tariximizə verilən milli dəyər komponentidir.

-2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olması dövlətçilik ənənələri və hüquqi-siyasi islahatlar nəzərindən əhəmiyyəti nədir...

-2025-ci il - “Konstitusiya və Suverenlik İli” müstəqil Respublikanın hüquqi əsaslarının gücləndirilməsi, dövlət suverenliyinin daha da möhkəmlənirilməsi məqsədi daşıyır.

-Konstitusiya xalqın azadlığının, dövlət və hakimiyyətin suverenliyinin hüquqi təməl sütunudur.

Qeyd etdik ki, Prezident İlham Əliyevi sərəncamı ilə Azərbaycanda 2025-ci il “Konstitusiya və suverenlik ili” elan edilib. Bu 2025-ci ilin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının gerçəkliklərinə bir daha diqqətin yönəldilməsidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən  ilk milli Azərbaycan konstitusiyasının 30-cu və Qarabağ torpaqlarının işğaldan azad edilən ərazilər üzərində dövlət suverenliyinin bərpasının, Zəfərin 5-ci ildönümündə ehtiva olunur.

-1991-ci il müstəqilliyin bərpasından sonra azad Azərbaycanda ən vacib vəzifələrdən biri hüquqi baza yaradılması idi.

**-12 noyabr 1995-ci il Azərbaycan** Konstitusiyası xalqın iradəsinin əksi, əsas qanunu, demokratik dövlət quruculuğu yolunu müəyyənl\şdirən qanunlar məcəlləsidir.

-Ali qanun tək hüquqi yox, həm də dövlət suverenliyini, ərazi bütövlüyünü və gücünün ifadəsi olan dəyərdir.

-2025-ci il suverenlik, müstəqillik, azad Azərbaycanın **Böyük Nailiyyətlərinin siyasi-nəzəri tarixidir.**

-Suverenlik bir prinsip, xalqın öz taleyinin müəyyənləşdirilməsi, sərhədlərin toxunulmazlığı, dövlətin tam müstəqil siyasət aparması yoludur.

**Suverenlik və Konstitusiya İlinin** elanı edilməsi perspektivdə hüquqi islahatların dövrə uyğun həyata tətbiqi üçün vacib zəmindir.

Dövlət suverenliyinin qorunması və hüquqi aktların modernləşdirilməsi Azərbaycan dövlətinin yeni islahatlar xəttinin əsas istiqamətlərindəndir.

**Suverenlik və konstitusiya hüququ** XXI əsrin dövlətçilikdə fundamental prinsiplərinin əsasıdır. Bu mənada Azərbaycanda “**Suverenlik və Konstitusiya İlinin”** elan olunması, hüquqi islahatların yenilənməsi və dövlətçiliyin inkişafına xidmət edir. Bu da Konstitusiya dəyərlərinin qorunması və hüquqi aktların təkmilləşdirilməsi zəminində dövlətin gələcək inkişaf göstəricisidir.

-“Suverenlik və Konstitusiya İlində” **siyasi-hüquqi biliklərin artırılması, siyasi hüquqi islahatların** daha ardıcıl tətbiqi, vətəndaşların **hüquqi biliklərinin** yüksəldilməsi məqsədinə xidmət edir. Bu təşəbbüs siyasi-hüquqi, bilik, savad, təhsil və məlumatlandırıcı maarifləndirməni yüksəltməklə, əhalinin öz konstitusiya hüquqları ilə əlaqəli informasiyalarını artırır. Siyasi-hüquqi maarifləndirmə cəmiyyətin milli qanunvericiliklə bağlı hüquqi biliklərinin formalaşmasında vacib əhəmiyyət daşıyır. Konstitusiya dəyərlərinin təşviqi, tədqiqi və  təbliği müstəqil, hüquqi, suveren dövlətin bütün istiqamətlər üzrə inkişafı nəzərindən vacib əhəmiyyətlidir.

**-2025-ci il ictimai-siyasi həyatdakı** kimi elmin, təhsilində dövlətçilik institutu və xalq üçün tarixi əhəmiyyətli bu iki hadisənin **siyasi-fəlsəfi mahiyyətini** araşdırmaq və təhlil etməklə, geniş ictimaiyyətə aşılamaqla bilgiləndirməkdir.

-Azərbaycanın heç bir hərbi-siyasi bloklara üzv olmaması reallığı;

Dünya dövlətlərilə balanslı ikitərəfli qarşılıqlı münasibətləri, öz mənafe və maraqlarını müəyyənləşdirməsi gerçəkliyi;

-Suveren Respublikada heç bir dövlətin hərbi bazasının yerləşməməsi;

-Xalq və onun mənafeyi ilə bağlı dövlətin iradəsinə heç bir xarici faktorun təsirinin olmaması **dövlət suverenliyinin** göstəriciləridir.

-2012-ci ildə Azərbaycanda Rusiya Federasiyasının Qəbələ Radiolakasiya Stansiyasının fəaliyyətinin ləğvi, qurumun hərbi kontingentinin ölkə ərazisindən tam çıxarılması;

-Milli Ordunun 2020-ci il 8 noyabrda Qarabağda Ermənistanın silahlı-hərbi birləşmələrinin işğalına son qoyması;

-2023-cü il sentyabrda erməni işğalçılarının Qarabağdan tam təmizlənərək separatizmin dağıdılması;

-**Rusiya sülhməramlılarının işğaldan azad edilmiş** torpaqlardan çıxarılaraq müasir Azərbaycan dövlətinin real və gerçək suverenliyinin tam bərpasının real təsdiqidir.

Suveren Azərbaycan Dünya azərbaycanlılarının hüquq və haqlarının qorunmasının müvəkkili olan müstəqil dövlət olmasıdır.

- Dövlət suverenliyinin və konstitusiya quruluşunun onun bütün ərazilərində müstəsna təmininin təsbitidir.

Beləliklə, **XXI əsrdə müasir Azərbaycanda dövlətçilik institutu Konstitusion əsaslı çətin geosiyasi** dəyişikliklərin baş verdiyi dəyişən dünya nizamında suverenliyini tam bərqərar etmiş, öz milli iradəsinin ifadəçisi kimi hakimiyyətinin mənbəyi **xalq olan suveren dövlətdir.**

## Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2016. "Qanun" nəşr. 72 səh.
2. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 28.12.2024. precident.az/az/articles/view
3. https://president.az/az/articles/view/66855. Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 19 sentyabr 2024, 10:30
4. Heydər Əliyev. Müstəqillik yolu. B., 1997, Azərbaycan Universiteti nəşr.
5. Anl.az/el/emb/cumhuriyyet/istiqlal_beyannamesi.htm
6. Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiya layihəsində dövlət dili haqda geniş müzakirədə nitqindən. 31.10.1995. Justice.gov.az/catoqories/2053.
7. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. Az.m.wikipedia/org/wiki/
8. Ə.Abbasov. "Dünya problemləri: Fəlsəfənin verə biləcəyi töhfə"Fəlsəfə və sosial siyasi elmlər jurnalı, B., 2009, №3, səh. 61-74
9. Руссо Ж.Ж. Трактаты. М., 1969, стр. 164

10. Suverenlik. Vikipedia.https://ru. wikipedia.org...
11. B.Strasun Xarici ölkələrin Konstitusiya hüququ. Ümumi hissə. Dərslik. B., Qanun, 2007, 726 s.
12. T.Hobbs. Fəlsəfənin əsasları //Vətəndaş haqqında. Bax:az.m. wikipedia.org... wiki//Tomas Hobbs.
13. И.Левин. Суверенитет. Спб.Юридический центр. Пресс, 2003.18
14. Ru.m.wikipedia/orq/wiki/хинсли-Артир
15. BMT-nin Nizamnaməsi azm. wikipediya.org...
16. Bax:google.com/search?q.wiki
17. В.Большакова «Проблемы соотношения видов суверенитетов».
18. https://az.wikipedia.org/wiki/Suverenlik